**AYTƏKİN TAĞIYEVA**
**ADPU**
**e-mail: aytekin.tayeva00@mail.ru**

# X SİNIFDƏ Q.ZAKİRIN HƏYAT VƏ YARADICILIĞININ TƏDRİSİ

**Açar sözlər :** fəal təlim, interaktiv metod, tərcümeyi-hal, inteqrasiya
**Key words :** active training, interactive method, autobiography, integration
**Ключевые слова:** активное обучение, интерактивный метод, биография, интеграция

Təlim fənni kimi ədəbiyyat fənninin məzmununu keçmiş və müasir dövründəyərli söz sənəti nümunələrinin, görkəmli ədiblərin həyat və yaradıcılığının,tarixi ədəbi prosesin mühüm faktlarının, bədii əsərin dolğun şəkildə mənimsənilməsi üçün zəruri olan ədəbiyyat nəzəriyyəsi elementlərinin öyrənilməsi təşkil edir.

Qüdrətli sənətkarların həyat və yaradıcılığının tədrisi şagirdlərin mənəvi tərbiyəsi baxımından əhəmiyyətlidir.Aparılan təcrübələr göstərir ki, sənətkarın tərcümeyi-halını, bədii yaradıcılığını öyrənməyən şagirdin düşüncəsi dayaz, mənəviyyatı kasıb olur.(47,3) Şagirdlər təkcə bədii əsərləri deyil, onları ərsəyə gətirən sənətkarların şəxsiyyətini, örnək olmağa layiq həyatlarını da mənimsəmələdirlər. Yəni şair və yazıçıların yaradıcılığı ilə yanaşı, onların ömür yollarının səhifələrini də vərəqləmək şagirdləri tərbiyə etməkdə ikiqat dəyərlidir.(79,1)

Bu baxımdan ədəbiyyat proqramına daxil olan mövzuların bir hissəsini tərcümeyi-hal materialları təşkil edir.

Sənətkarın həyat və yaradıcılığının daha ətraflı öyrənilməsi siniflər üzrə dəyişir. Beləki V-IX siniflərdə sənətkarın həyat və yaradıcılığının öyrənilməsi zamanı geniş təfərrüatlara varmaq, ikinci dərəcəli, əlavə faktları dərsə gətirməklə uşağın yaddaşını əhəmiyyətsiz biliklərlə yükləmək doğru deyildir.(272,2) Yuxarı siniflərdə, yəni X-XI siniflərdə isə ədiblərin həyat və yaradıcılığı daha dərindən öyrənilir.

X sinifdə həyat və yaradıcılıq yolu öyrənilən sənətkarlardan biri Q.Zakirdir. Q.Zakirin həyat və yaradıcılıq yolunun məktəblərdə tədrisi klassik irsə məhəbbət hissi aşılamaqla şagirdlərin mənəvi-əxlaqi keyfiyyətlərinin yüksəlməsinə, bədii təfəkkürlərinin zənginləşməsinə kömək göstərir. Sənətkarın həyatı barədə məlumatın verilməsində əsas məqsəd onun keçdiyi ömür yolu ilə şagirdləri tanış etməkdir.Sənətkarı əhatə edən dövr, mühit bu və ya digər dərəcədə əsərlərində izlər buraxır. Əgər Zakirin belə bir

mühitinə bələd olunmazsa onun əsərlərində qaldırılan problemlərin, ideyaların aşılanmasında çətinlik yaranacaqdır.

Q.Zakirin həyat və yaradıcılığını tədris edərkən ilk növbədə onun bir sənətkar

kimi ədəbiyyat tarixində yeri müəyyənləşdirilməli, şagirdlərdə maraq oyatmaq məqsədi ilə şairin portreti, foto-albomlar, qəzet və jurnal materiallarından da istifadə yararlıdır. Şairin həyatı ilə bağlı bir sıra məsələlər diqqət mərkəzində saxlanılmalıdır :1.Q.Zakirin anadan olduğu il və yer; 2. İctimai mənşəyi; 3. Şairin həbs olunmasının səbəbləri, sürgün həyatı yaşaması; 4. Şairin dostları və düşmənləri; 5. Dövrün ictimai-siyasi xarakteristikası; 6. Həyatının son illəri və vəfatı; 7. Şairin Rusiya dövlətinə münasibəti.(12,4)

X sinfin "Ədəbiyyat" dərsliyində Q.Zakirin həyatı və yaradıcılığı ilə bağlı yığcam məlumat verilmişdir. Sənətkarların tərcümeyi-halını öyrənmək üçün, əsasən, avtobioqrafik əsərlərdən, xatirələrdən, məktublardan istifadə etmək əhəmiyyətlidir. Dərslikdə F.Köçərlinin xatirələrə əsaslanaraq Q.Zakir haqqında fikir və mülazhizələrininin verildiyinin şahidi oluruq.

Bu mətn əsasında Zakirlə bağlı məlumatların dərinləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Bu səbəbdən diqqət dərslikdəki suallara cəlb edilməlidir. Klassik ədəbiyyatımızın layiqli varisi olan Q.Zakirin əsərləri ideya dərinliyi baxımından keyfiyyət sıçrayışı idi. Müəllim dərsdə şairin münasib şeirlərinin oxusunu tövsiyə edə bilər. Oxuya ayrılan vaxt bitdikdən sonra isə müxtəlif iş formalarından, məsələn cütlərlə iş və ya kiçik qruplarla iş formalarından istifadə etməklə şagirdlər arasında məlumat mübadiləsi, müzakirənin aparılması üçün şərait yaradıla bilər.

Q.Zakir əsərlərini lirik və epik növdə yazmışdır. Onun lirikası klassik və aşıqŞeiri üslubunda yazdığı qoşma, gəraylı, təcnis, qəzəl, müxəmməs, müstəzad və s. ibarətdir. Sənətkarın X sinifdə "Badi səba,mənim dərdi-dilimi" qoşması tədris edilir. Bu şeirin tədrisinə iki saat vaxt ayrılmışdır. Birinci saat məzmun üzrə iş, ikinci saat isə təhlil üzrə işə ayrılmışdır. Dərslikdə şeirlə bağlı tapşırıqların icrası zamanı bir sıra metodlardan istifadə etmək əlverişlidir. Şagirdlər həm kiçik qruplarda, həm də cütlük şəklində işə cəlb oluna bilər.

Bu şeir haqqında şagirdləri məlumatlandırmaq məqsədi ilə Şərq ədəbiyyatındaeləcə də Azərbaycanın yazılı və şifahi poeziyasında səhər küləyinə, yəni badi-səbayamüraciətin yeni forma olmadığını qeyd etməklə nümunələr göstərərək maraqlı inteqrasiya yaratmaq olar. Məktəb təcrübəsi də ədəbiyyat dərslərində məqsədyönlü şəkildə həyata keçirilən fəndaxili və fənlərarası əlaqənin müsbət nəticə verdiyini göstərir. Bu, ədəbiyyat təliminə verilən müasir tələblərdən biridir.

Zakir yaradıcılığından danışarkən onun satira, təmsil və mənzum hekayələri

haqqında da məlumat verilməlidir. Onu ədəbiyyatımızda daha çox şöhrətləndirən dəməhz satiraları olmuşdur. O, bu üslubda yazdığı şeirləri ilə ədəbiyyatımızn satiraqolunun formalaşmasında böyük işlər görmüşdür. Zakir yaradıcılığı onun tərcümeyi-halı ilə sıx bağlı olduğu üçün bu şeirlərin tədrisi zamanı onların mövzusu, yazılmasəbəbi, burada şairin çatdırmaq istədiyi ideya şagirdlərə aydınlaşdırılmalıdır. Bu gündə öz aktuallığını qoruyan Zakir yaradıcılığının ədəbi dilimizin inkişafındakı roludanılmazdır.

"Badi-səba, mənim dərdi-dilimi" qoşmasının dili üzərində iş zamanıməlum olur ki, Q.Zakirin qoşmaları məzmun və formasına, orijinallığına görə seçilir. Şair özü xalq ədəbiyyatına bağlı olduğu üçün bu şeirlərdə də şifahi xalq yaradıcılığının təsiri duyulmaqdadır. Bütün bunlar maraqlı faktlar kimi şagirdlərin nəzərinə çatdırılmalıdır.(15,6) Q.Zakir irsinin tədrisi şagirdlərin ədəbi-bədii zövqünün formalaşmasında, əməyə, zəhmətə, vətənə sonsuz sevginin tərbiyə olunmasında mühüm rol oynayır.

## İstifadə olunmuş ədəbiyyat


1. Aslanov Y. "Ədəbiyyat tədrisi: ənənə müasirlik" Bakı, 2011
2. Həsənli B. "Ədəbiyyatın tədrisi metodikası" Bakı, 2014
3. Hüseynoğlu S. "Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim" Bakı, 2009
4. Hüseynov S. "Qasım bəy Zakir" Bakı, 2010
5. Məmmədov K. "Qasım bəy Zakir" Bakı, 1984
6. Teymuroğlu R. "Qasım bəy Zakir irsinin tədqiqi" Bakı, 2007
7. Ümumtəhsil məktəblərinin X sinfi üçün Ədəbiyyat dərsliyi
8. Yusifov F. "Ədəbiyyatın tədrisi metodikası" Bakı,2015


**A. Thagieva**

## Teaching of Q.Zakir's life and creativity in class X

### Summary

Today we have accumulated enough experince in the life and creativity of Q.Zakir,which has a special place in our XIX th century literature. Both the rich creativity of the dog and the vital facts of life must be brought to thr attention of the pupils. In addition to the literary creativity of each artist, his teaching of his biography also provides a fuller idea of

that person. The interrelated teaching of these or other facts and events is of double value in the process of mastering.

Modern requirements for literature have led to a number of innovations in the learning process.

Theuse of active/interactive learning methods provides a broad discussion of lessons. It is necessary to use such innovations in the teaching of creators life and creativity. Teaching Q.Zakir'slife and creativity is also relevant today. In school practice, sometimes there are a number of shortcomings.

It is an example of a great deal of space for illustration and additional information. Should be borne in mind that the wider place in the life and creativity of the writer. The integration of Q.Zakir in particular teaching creativity is crucial.

Poems of the spell must be mastered on the basis intensive integration. Thus, students acquire complex knowledge in the form. All of this creates conditions for successful trainings.

**А.Тагиева**

## Учение о жизнь и творчество Г.Закира в X классе

### Резюме

Особое место в литературе XIX века занемает жизнь и творчество Закира сегодня в обучение уже покоплен достаточный опыт. Ученикам следует сообщать о богатом творчестве писоетеля, а также о необходимых фактах его жизни.

Наряду с литературио, творчеством каждого худотилка, обучение его биографие создает погбу для ерормирования болееиполного представления об этоме человеке. Взаимосвязанное обучение тех или иных фактов и событий имеет двоиную ценность в процессе усволпия . Требования к урокам литературы в современный период привели к созданию в процессе обучения ряда новшест.

Использование активных/интерактивных методов обучения позволеет широко обсуждать на уроках. Необходимо использовать такие повшества в обучение жизни и творчества художников. В школьной практике иногда в связи с этим допускается ряд недостатков. Таким образом,приведение описания дополнительного места явлеется примеран этого.

Обратить внимание неодходимо более широкое место событиям, играющим важную роль в жизни и творчестве писател да Г.Закир в частности, реализация интегративных возможность обучения в преподавании творчества важно. Добавление литераторам стихотворение внутриполитической интеграции он должен быть усвоен.

В таком случае учащиесля обладиот знаниями в сложной форме. Все это создает условия для получения эффективных результатов в обучении.

**Rəyçi: Fəxrəddin Yusifov**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**